# İnkişaf bölgələrdə davamlı xarakter alıb

**Regional inkişafa dair Dövlət Proqramının ikinci mərhələsi bölgələrin sosial-iqtisadi və mədəni həyatında daha çox hiss olunur. Yeni istehsal sahələri işə salınır, əhalinin sosial müdafiəsi gücləndirilir, infrastruktur yenidən qurulur və bir sözlə, şəhər və kəndlərimizin görkəmi başdan-başa dəyişir. Təbii ki bu da əhalinin həyat şəraitinin yaxşılaşmasına müsbət təsir göstərir. Cari ilin doqquz ayının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş yığıncaqlarda qeyd edilən faktlar bir daha onu göstərdi ki, bölgələrdə sosial-iqtisadi inkişafın miqyası durmadan genişlənir və əhalinin həyat şəraiti əvvəlki illərə nisbətən daha da yaxşılaşır. İndi ən ucqar kənddə belə tikinti-quruculuq işləri aparılır. Nazirlər Kabinetinin iclasında dövlətimizin başçısı İlham Əliyev qeyd etmişdir ki, Azərbaycanın inkişafı insanların həyat şəraiti ilə üst-üstə düşür. Elə bir gün olmur ki, istehsal müəssisəsi, fabrik, zavod işə düşməsin, insanlar yeni iş yerləri ilə təmin olunublar. Təbii ki, bölgələrdə də həyat durmadan dəyişir, inkişaf və tərəqqi ən ucqar kəndlərdə belə hiss olunur.**

## Ağdam

Cəbhə xəttində yerləşən və ərazisinin dörddə üç hissəsi Ermənistan tərəfindən işğal edilmiş rayonda müharibədən zərər çəkmiş ərazilərdə bərpa və yenidənqurma işləri uğurla davam etdirilir. Dövlət tərəfindən göstərilən diqqət və qayğı sayəsində rayonun əlimizdə qalan qəsəbə və kəndlərində tikinti-quruculuq işlərinin ahəngi səngimir. Diqqəti ən çox cəlb edən odur ki, rayonun giriş qapısından tutmuş təmas xəttinə qədər olan ərazilərdə yeni iş yerləri açılır, əhalinin məşğulluğu təmin olunur. Bu barədə 2015-ci ilin 9 ayının sosial-iqtisadi inkişafının yekunları və qarşıda duran vəzifələrə həsr olunmuş yığıncaqda rayon icra hakimiyyətinin başçısı Raqub Məmmədovun hesabat məruzəsində daha geniş və ətraflı məlumat verilib. Qeyd olunub ki, Bu il Ağdam rayonunun Quzanlı qəsəbəsində avtovağzal, mini futbol meydançası, çay evi, yanacaqdoldurma məntəqəsi, Təzəkənd qəsəbəsində poçt şöbəsinin binası, Evoğlu kəndində 100 yerlik uşaq bağçası, Çəmənli kəndində kitabxana, Əfətli və Əhmədağalı kəndlərində Böyük Vətən Müharibəsi iştirakçılarının və Qarabağ müharibəsi şəhidlərinin xatirəsinə abidə kompleksləri tikilib istifadəyə verilib. Rayonda sənaye məhəlləsinin yaradılması üçün torpaq sahəsi ayrılıb.

**Rayon icra hakimiyyətinin başçısı Raqub Məmmədovun** məruzəsində daha sonra bildirilib ki, hesabat dövründə Çəmənli kənd uşaq bağçasının və Üçoğlan kənd xəstəxanasının təmiri başa çatdırılıb. Hazırda Quzanlı qəsəbəsində Heydər Əliyev Mərkəzinin, kənd təsərrüfatı idarəsinin, 360 şagird yerlik məktəbin, mərkəzi aptekin, Xındırıstan uşaq musiqi məktəbinin tikintisi davam etdirilir. Doqquz ayda rayon ərazisində 50 mindən çox müxtəlif növ ağac əkilib.

Məlumat verilib ki, ilin doqquz ayında rayon üzrə ümumi məhsul istehsalının həcmi 94 milyon manat olub. Bu dövrdə 7 milyon manatlıq sənaye, 68 milyon manatlıq kənd təsərrüfatı məhsulları istehsal edilib.

Aqrar sahədə görülən işlərdən danışılarkən diqqətə çatdırılıb ki, hesabat dövründə 17 min 827 hektar taxıl sahəsindən 56 min 183 ton məhsul tədarük olunub, məhsuldarlıq 31,5 sentnerə çatdırılıb. Bundan başqa, torpaq mülkiyyətçiləri tərəfindən 2534 hektar tərəvəz sahəsindən 39050 ton, 450 hektar kartof sahəsindən 7560 ton məhsul istehsal edilib.

Yığıncaqda əhalinin təbii qaz, elektrik enerjisi, rabitə və digər xidmətlərlə təminatının yaxşılaşdırılması istiqamətində görülən işlərdən, təhsil, mədəniyyət, səhiyyə və aqrar sahədə əldə olunan uğurlardan da ətraflı bəhs edilib, mövcud problemlərə toxunulub, onların həlli və qarşıda duran vəzifələrdən danışılıb.

Rayon icra hakimiyyətinin fəaliyyətində əsas diqqət vətəndaşların qəbuluna, ərizə və şikayətlərin baxılmasına yönəldilmiş, kənd və qəsəbələrdə səyyari qəbullar keçirilmiş, əhali tərəfindən qaldırılan problemlər öz həllini tapmışdır. Sonra məruzə ətrafında çıxışlarda cari ilin doqquz ayı ərzində görülmüş işlər ətraflı təhlil edilmiş, uğurlarla yanaşı, problemlər də sadalanmış, onların həlli üçün təkliflər irəli sürülmüşdür.

## Füzuli

Regionların inkişafı dövlət siyasətində mühüm yerlərdən birini tutur. Əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş inkişaf strategiyası uğurla davam etdirilir, iqtisadiyyatın möhkəmləndirilməsi üçün məqsədyönlü tədbirlər həyata keçirilir. Ən əsası isə dövlət başçısının siyasətində əsas diqqət insan amilinin inkişafına, sosial problemlərin həllinə və vətəndaş cəmiyyətinin formalaşmasına yönəldilib. Uzun illər ərzində respublikamızda aparılmış səmərəli iqtisadi siyasət və iqtisadi islahatlar dönmədən həyata keçirilir. Məhz buna görə də əldə olunan uğurlar davamlı və sabitdir.

Ölkənin hər yerində inkişaf daha aydın duyulur. Həm ərazisinə, həm də əhalisinin sayına görə respublikanın ən iri rayonlarından hesab olunan ön də, arxa da cəbhə olan Füzulidə son bir neçə il dirçəliş və tərəqqi dövrü kimi dəyərləndirilir.

Müharibə ağrıları yaşamış bu torpaqda indi sevincdən və uğurdan bir büsat qurulub və bu yerlər gözəl bir məkana çevrilib. Horadiz şəhərində və ətraf kəndlərdə tikinti-quruculuq işləri davamlı xarakter alıb, hər tərəfdə səliqə-sahman yaradılır. Əmin-amanlıq adamların daha həvəslə çalışmasına, qurub-yaratmasına, yaxşı güzəran qurmasına münbit şərait yaradıb. Təbii ki, bu isti, qaynar, səmimi ab-hava da insanların əhval-ruhiyyəsinə müsbət təsir göstərir. Çox yeri demirəm, təkcə ulu öndər Heydər Əliyevin adını daşıyan prospektdə gəzişəndə hiss edirsən ki, tamam başqa bir aləmə düşmüsən. Burada çox gözəl və möhtəşəm işlər həyata keçirilib. Prospektdə diqqəti ən çox cəlb edən fontanlar və bulaqlardır. Ürəklərə və qəlblərə sərinlik bəxş edən bulaqlar...

Başqa bir fakta nəzər salaq. Füzulinin sürətli inkişafını özündə əks etdirən, quruculuq və abadlığın əsas ünvanlarından biri olan Horadiz şəhəri füsunkar bir görkəm alıb,Bayraq meydanı isə özgə bir aləmdir.

2015-ci ilin doqquz ayında Füzuli rayonunda ümumi məhsul buraxılışının həcmi 113.965.3 min manat təşkil edib. Bu, əvvəlki ilin eyni dövrü ilə müqayisədə 15,3 faiz çoxdur. Ümumi məhsul buraxılışının 7.438.4 min manatı sənaye müəssisələrinin, 73.444.5 min manatı kənd təsərrüfatının, 2.162.8 min manatı tikinti-quraşdırma işlərinin payına düşür.

Cəbhə xəttində fədakar insanların qazandığı uğurlar barədə Horadiz şəhərində 2015-ci ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunları və qarşıda duran vəzifələrə həsr olunan yığıncaqda məlumat verilib.

Rayon icra hakimiyyətinin başçısı Alı Alıyev hesabat məruzəsində bildirib ki, hesabat dövründə rayonda iqtisadiyyatın əsas sahələri üzrə uğurlu nəticələr qazanılıb, "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nda nəzərdə tutulmuş bir sıra tədbirlərin icrasına başlanılıb, tikinti-quruculuq işləri davam etdirilib.

Məlumat verilib ki, Əhmədbəyli kəndində 340 şagird yerlik gimnaziya, Bala Bəhmənli kəndində uşaq bağçası istifadəyə verilib. Hazırda Horadiz şəhərində Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rayon şöbəsi, rayon statistika idarəsi və kənd təsərrüfatı idarəsi üçün inzibati binaların tikintisi davam edir. Əhmədbəyli kəndində kənd xəstəxanasının tikintisi başa çatmaq üzrədir. Yaxın günlərdə rayon ərazisində 400 ailəlik yeni qəsəbənin tikintisinə başlanılacaq. 2015-ci ildə rayonun yaşayış məntəqələrinin qazlaşdırılması başa çatdırılacaq, Qayıdış qəsəbələrini birləşdirən avtomobil yolunun yenidən qurulması və əhalinin sosial-iqtisadi rifahının gücləndirilməsi istiqamətində tədbirlər davam etdiriləcəkdir.

Yığıncaqda aqrar sahədə əldə olunan uğurlardan danışılarkən bildirilib ki, son illər rayonda strateji məhsul olan taxılçılığın intensiv inkişafına xüsusi diqqət yetirilir. Artıq beşinci ildir ki, Füzuli taxıl istehsalına görə respublikanın 100 min tonçu rayonları sırasındadır. Füzuli taxılçıları bu il 32,8 min hektar sahədən 111,2 min ton taxıl əldə ediblər. Əkin sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılması məqsədilə bu il rayon ərazisində 13 ədəd subartezian quyusu qazılıb. Rayonun Haramı ərazisində 5000 baş ətlik və südlük istiqamətində heyvandarlıq kompleksi və sutkada 10 ton süd qəbul edəcək zavodun tikintisini başa çatmaq üzrədir.

Yığıncaqda təhsil, səhiyyə, mədəniyyət, idman, kənd təsərrüfatı, xidmət sahələrində görülmüş işlər təhlil olunub, uğurlarla yanaşı mövcud problem və çatışmazlıqlar da göstərilib, qarşıda duran vəzifələr müəyyən edilib.

## Ağcabədi

Aran torpağı ilə Qarabağın qovuşuğunda yerləşən Ağcabədi indi ən müasir, gözəl, yaraşıqlı, mübaliğəsiz demək olar ki, Avropa şəhərləri ilə müqayisə olunan, diqqəti cəlb edən bir şəhərə çevrilib. Ötən dövr ərzində bu qədim diyar həm öz tarixi ənənəsini qoruyan və müasirləşən yaşayış məntəqəsidir. Dövlət Proqramının ən uğurlu cəhəti odur ki, bölgələrlə paytaxt arasında fərq aradan götürülür. Elə cari ilin doqquz ayın yekunlarına həsr olunmuş hesabat yığıncağında bütün bunlar haqqında geniş və ətraflı söhbət açıldı. Ağcabədililər dərin minnətdarlıq hissi ilə qeyd etdilər ki, son bir neçə il ərzində onların yaşadıqları rayonun inkişafı, tərəqqisi və çiçəklənməsi Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin bölgələrə göstərdiyi diqqət və qayğının ən gözəl nəticəsidir. Cari ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına həsr olunmuş yığıncaq işgüzar şəraitdə keçirilmiş və qarşıda duran vəzifələr müəyyən edilmişdir.

**Rayon icra hakimiyyətinin başçısı Şahin Məmmədov** görülən işlər və qarşıda duran vəzifələr barədə məruzə etmiş, ilin doqquz ayında rayonda iqtisadiyyatın əsas sahələri üzrə uğurlu nəticələr qazanıldığını, tikinti, abadlıq-quruculuq işlərinin davam etdirildiyini diqqətə çatdırmışdır.

2015-ci ilin doqquz ayında Ağcabədi rayonunda iqtisadiyyatın əsas sahələri üzrə məhsul buraxılışının həcmi 223.281,2 min manat olub. Bu, əvvəlki illə müqayisədə 23,4 faiz çoxdur. Bu dövrdə 8826,4 min manatlıq sənaye, 135.302,2 min manatlıq kənd təsərrüfatı məhsulları istehsal edilib, əsas kapitala 23.842 min manat investisiya yönəldilib. 2014-cü ilin eyni dövrü ilə müqayisədə sənaye məhsulları istehsalı 2,6 faiz, kənd təsərrüfatı məhsulları istehsalı 29,1 faiz, əsas kapitala yönəldilən investisiyalar 5,4 faiz artıb.

Uğurları əks etdirən bu faktlar Ağcabədi rayonunda 2015-ci ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunları və qarşıda duran vəzifələrə həsr olunmuş hesabat yığıncağında səsləndirilib.

Rayon icra hakimiyyətinin başçısı Şahin Məmmədovun hesabat məruzəsində tikinti-quruculuq və abadlıq işlərinin davam etdirildiyi diqqətə çatdırılıb. Bildirilib ki, Ağcabədi şəhərində Heydər Əliyev adına meydana 900 kvadratmetr tamet döşənib, iki ədəd giriş qapısı inşa edilib. "1941-1945" abidə kompleksi və Şəhidlər Xiyabanında yenidənqurma işlərinə, abidə kompleksinin tikintisinə başlanılıb. 100 yerlik körpələr evi-uşaq bağçasının və kənd təsərrüfatı idarəsinin binasının tikintisi başa çatıb. Rayonun Ağdam istiqamətində geniş abadlıq-quruculuq işləri aparılıb, yaşıllıqlar salınıb. Şəhərin küçə və prospektlərinə 25450 kvadratmetr, Sarıcalı kəndi ərazisində magistral yola 13683 kvadratmetr asfalt örtük salınıb. Hazırda Aran kənd sahə xəstəxanası, şəhər 11 nömrəli tam orta məktəb və Hacıbədəlli kənd uşaq bağçası əsaslı təmir olunur, Olimpiya İdman Kompleksinin inşası davam etdirilir.

Doqquz ayda rayonun Təzəkənd, Şahsevən, Köyük, Şərəfxanlı, Aran və Kəbirli kəndləri təbii qazla təmin edilib, Azərbaycan Prezidentinin Sərəncamı ilə rayonun 16 kəndində 20 ədəd subartezian quyusu qazılıb. Bundan başqa Yaponiya hökumətinin "Ot kökləri və insan təhlükəsizliyi qrant yardımı" proqramı çərçivəsində rayonun 10 kəndində subartezian quyuları təmir edilib.

Yığıncaqda elektrik enerjisi, təbii qaz və su ilə təminat, təhsilin, mədəniyyətin, səhiyyənin, aqrar sahənin inkişafı sahəsində görülən işlər ətraflı təhlil edilib, əhalinin həyat şəraitinin yaxşılaşdırılması istiqamətində ardıcıl işlər görüldüyü diqqətə çatdırılıb.

Buna görə də ağcabədililər Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin qarşıya qoyduğu bütün vəzifələri layiqincə yerinə yetirəcəklərinə əmindirlər.

Hesabat yığıncağında məruzə ətrafında çıxışlarda nailiyyətlərlə yanaşı, mövcud problemlərdən də bəhs edilib, onların həlli yolları müzakirə edilib.

## Laçın

Ağcabədi rayonu ərazisindəki Taxtaköprü qəsəbəsində yerləşən Laçın Rayon İcra Hakimiyyətində 2015-ci ilin doqquz ayının sosial-iqtisadi inkişafın yekunları və qarşıda duran vəzifələrə həsr olunmuş yığıncaq keçirilib. Əvvəlcə rayon ictimaiyyəti nümayəndələri ulu öndər Heydər Əliyevin büstünü ziyarət edilmiş və büstün önünə gül dəstələri düzülüb.

Yığıncaqda **rayon icra hakimiyyətinin başçısı Akif Səlimovun** görülən işlər və qarşıda duran vəzifələr barədə məruzəsi dinlənilib. Qeyd olunmuşdur ki, cari ildə Taxtaköprü qəsəbəsində tikinti-abadlıq işlərinin davam etmiş, laçınlı məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılması istiqamətində xeyli iş görülmüşdür. Laçın rayonunda cari ilin 9 ayında görülən işlər və qarşıda duran vəzifələr haqqında hazırlanmış məruzədə ölkə Prezidentinin rəhbərliyi altında respublikada və rayonda görülmüş işlər, əldə olunmuş nailiyyətlər ətraflı təhlil edilmişdir. Həmçinin məruzədə bildirilmişdir ki, hesabat dövründə 38 şəhər və rayonda 59 səyyar qəbul keçirilmiş, 4731 nəfərin iştirak etdiyi bu qəbullarda 531 nəfər, rayon icra hakimiyyəti başçısı aparatında isə 2487 nəfər rayon sakininin müraciətləri dinlənilmiş, onların mənzil-məişət şəraiti ilə yaxından tanış olunmuş, həlli mümkün olan məsələlərin həyata keçirilməsi üçün aidiyyəti rayon təşkilatlarına göstərişlər verilmişdir. Rayon icra hakimiyyəti başçısı yanında 19 şura iclası keçirilmiş, cari məsələlər dərindən təhlil edilmişdir. Eyni zamanda bildirilmişdir ki, hesabat dövründə Fingə obasında 4.4 km, Şeylanlı obalarında 5.6 km, Sadınlar-2 obasında 4.1 km və Qarakeçdi İnçalan obasında 8.1 km uzunluğunda çınqıl örtüklü avtomobil yolu çəkilmişdir. Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin layihəsi əsasında əhalini içməli su ilə təmin etmək məqsədi ilə Mişni və Qarıqışlaq obalarında yeni modul tipli su təmizləyici qurğunun tikintisinə başlanılmış, obadakili su xətləri çəkilmiş, hər iki obada müasir standartlara cavab verən su təmizləyici qurğular əhalinin istifadəsinə verilmişdir. Rayonun daxili imkanı hesabına Vağazin obasında 640 m uzunluğunda avtomobil yolu əsaslı təmir edilmişdir.

Məruzədə şəhid, əlil və imkansız ailələrə müxtəlif ərzaq yardımlarının verilməsi, səyyar qəbulların mütəmadi keçirilməsi, əhalinin içməli su təminatının yaxşılaşdırılması, təsərrüfat suyu və fasiləsiz elekrtik enerjisi ilə təmin olunması məsələləri ətraflı danışılmışdır. Şura iclasında rayon təhsil şöbəsinin, rayon mədəniyyət və turizm şöbəsinin, rayon mərkəzi xəstəxanasının rəhbərləri, rayon mənzil kommunal istismar sahəsinin rəisi və Laçın Rayon İcra Hakimiyyəti başçısının Fərraş kənd inzibati ərazi dairəsi üzrə nümayəndəsi çıxış etmişdir.

İclasda müzakirə olunan məsələlərlə bağlı müvafiq qərar qəbul olunmuşdur.

Məruzə və çıxışlarda görülmüş işlərlə yanaşı, mövcud problem və çatışmazlıqlar da qeyd olunmuş, qarşıda duran vəzifələr müəyyən edilmişdir.

## Xocavənd

Xocavənd Rayon İcra Hakimiyyəti başçısı yanında 2015-ci ilin doqquz ayının yekunları və qarşıda duran vəzifələrə həsr olunmuş geniş şura iclası keçirilmişdir. **Rayon icra hakimiyyətinin başçısı Eyvaz Hüseynovun** hesabat məruzəsində rayonun sosial-iqtisadi göstəriciləri təhlil olunmuş, xocavəndli məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılması istiqamətində görülən işlər ətraflı barədə məlumat verilmişdir.

Hesabat dövründə regionların sosial-iqtisadi inkişafına dair Dövlət Proqramlarının uğurla davam etdirilməsi nəticəsində bölgələrin hərtərəfli inkişafı təmin edilmiş, həyata keçirilən genişmiqyaslı tədbirlər ölkənin sosial-iqtisadi inkişaf strategiyasının mühüm istiqaməti kimi öz aktuallığını və önəmliliyini qoruyub saxlamışdır.

2015-cü ilin doqquz ayı ərzində idarə, müəssisə və təşkilatlar tərəfindən rayon ərazisində abadlıq və yaşıllaşdırma işləri həyata keçirilmiş, rayon üzrə 2834 ədəd ağac əkilmişdir. Eyni zamanda "İDEA" İctimai Birliyinin təşəbbüsü ilə "Ümumrespublika Yaşıllaşdırma" marafonu çərçivəsində həyata keçirilmiş ağacəkmə kampaniyasına uyğun olaraq rayonun giriş yollarının kənarlarında 750 ədəd ağac əkilmiş və bu işlər gələcəkdə də davam etdiriləcəkdir.

Qəbul edilmiş "Dövlət Proqramı"na uyğun olaraq Xocavənd rayonunun inzibati ərazisinə daxil olan strateji əhəmiyyətli "Qarasu" və "Nərgiztəpə" adlanan ərazilərini birləşdirəcək çınqıl yolun çəkilməsi ilə əlaqədar layihə-smeta sənədləri hazırlanıb "2014-cü ildə Xocavənd rayonunda görülmüş işlərin yekunları və qarşıda duran vəzifələr barədə" 20 fevral 2015-ci il tarixdə keçirilmiş hesabat yığıncağında qeyd olunan nöqsan və təkliflərlə bağlı rayon icra hakimiyyəti başçısının sərəncamı ilə təsdiq olunmuş "Tədbirlər Planı"na uyğun olaraq uzunluğu 5.6 km olan Xocavənd qəsəbəsinin giriş və mərkəzi yolu asfalt örtüyü ilə asfaltlanmışdır. Xocavənd qəsəbəsinin abadlaşdırılması, Bayraq Meydanının, idman zalının tikintisi, Xocavənd qəsəbəsində telefonlaşma işləri, eyni zamanda Yeni Xocavənd və Yeni Tuğ qəsəbələrinin telefonlaşması üçün tikinti işləri davam etdirilir.

Doqquz ay ərzində rayon Məşğulluq Mərkəzinə 101 nəfər işaxtaran (63 nəfəri qadın) vətəndaş müraciət etmişdir ki, müraciət edən vətəndaşlardan 79 nəfəri işlə təmin olunmuşdur (onlardan 4 nəfəri əvvəlki illərdə mərkəzdə qeydiyyatda olanlardır). İşlə təmin olunması mümkün olmadığı üçün 7 nəfərə işsizlik statusu verilərək qanuna müvafiq qaydada müavinət təyin edilmişdir. Məcburi köçkün əhalinin məşğulluğunun təmin edilməsi və maddi-rifah halının yüksəldilməsi məqsədi ilə cari dövr ərzində 56 yeni iş yeri açılmışdır. Son on ildə isə rayonda 1360 iş yeri açılmışdır ki, onlardan 704-ü daimi iş yeridir.

2015-ci ilin doqquz ayı ərzində rayonun yerli gəlirləri dotasiya ilə birlikdə 3439.0 min manata qarşı 3413.6 min manat yerinə yetirilmişdir ki, bu da illik proqnozun 99 faizini təşkil etmişdir. O cümlədən, yerli gəlirlərlə 585.2 min manat proqnoza qarşı 559.1 min manat icra olunmuşdur ki, bu da proqnozun 95.5%-ni təşkil edir.

Ötən dövr ərzində xərc 7955.0 min manat olmuşdur ki, bu da 2014-cü ilin müvafiq dövrünə nisbətən 349.4 min manat az olmuşdur. Rayon üzrə orta aylıq əmək haqqı isə 253.1 manat təşkil etmişdir.

Əhalinin davamlı və keyfiyyətli elektrik enerjisi ilə təminatı məqsədi ilə "Xocavənd","Yeni Xocavənd", "Yeni Qaradağlı", "Yeni Tuğ" və 320 ailəlik qəsəbələrdə elektrik enerjisi və qaz təminatı yaxşılaşdırılmış, sayğaclar quraşdırılmışdır.

Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 31 oktyabr tarixli 2475 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Qaçqınların və məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması və məşğulluğunun artırılması üzrə Dövlət Proqramı"na uyğun olaraq Beyləqan rayonu ərazisində Xocavənd rayonundan olan məcburi köçkün ailələri üçün inşa edilmiş 320 ailəlik müasir tipli yeni qəsəbədə 270 yerlik müasir avadanlıqlarla təchiz edilmiş məktəb istifadəyə verilmişdir.

**Salman ALIOĞLU,**
**"Respublika".**